# ŞAİR SÖZÜ YALAN DEYİL

## *Şair Rafiq Musanın "Axtarıram özümü" poeması üzərində düşüncələr*



***Şəddat CƏFƏROV,***
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,***
***Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,***
***Beynəlxalq Yazarlar Birliyinin üzvü***

"Kredo" qəzetində imzalarını gördüyüm daha doğrusu yazılarını oxuduğum elə müəlliflər var ki, yaddaşımda özünə yer eləyir. Poetik deyimlərini unutmuram elə müəlliflərdən biri son vaxtlar "Kredo" qəzetində imzasına tez-tez rast gəldiyim şair Rafiq Musadır. Onun ədəbi fəlsəfi şeirləri, dövrümüzdə baş verən hadisələrə mən deyərdim ki, çevik münasibəti onun qaynar poetik təfəkküründən xəbər verir. Xeyli əvvəl onun "Xəzan yeli" haqqında maraqlı bir şeirini oxudum "Kredo" qəzetində maraqlı fəlsəfi ümumiləşdirmə aparmışdır. Şairin yanaşmasına görə "Xəzan yeli" təkcə təbiət hadisəsi deyil bundadır. Sanki özün danışırsan, öz əhvalatını danışırsan, başına gələnləri səni duya bilən kimsələrə danışırsan. Heç xəbərin də olmur ki, danışadanışa yeni bir əsər yaradırsan. Bu, R.Musanın yanaşmasıdır və mənə də çox doğma gəldi:

Xəbəri olan kəslər
"Gəldiyimi" bildilər.
Doğulanda ağladım,
Sevincimi böldülər.
Ad qoydu babam mənə,
Adınla yaşa,- dedi.
Hərə bir söz söylədi,
Çoxları boşa dedi.
Haqlı sözü eşidib,
Pis sözə dodaq büzdüm.
Yaxşı nə var, götürüb,
İnci tək sapa düzdüm
Yazdığım şeirlərdə.

Müəllifin adı Rafiqdir. Bu, türklərin çox işlətdiyi "Rəfiq" sözündəndir. Mənası dost deməkdir, doğma deməkdir. R.Musa nə ədəbiyyatda, nə də ədəbi-ictimai mühitdə təsadüfi adam deyil. Dostum Ə.Xələflinin dediyinə görə, o, əvvəllər "Rafiq Məmmədov" imzası ilə yazıb. Mənə verilən məlumatdan yaddaşımda qalan budur ki, dünyadan vaxtsız köçmüş qardaşının adını özünə təxəllüs götürüb. Beləliklə, Musa adı da bir şair taleyi üçün təsadüfi səslənİş deyil. Musa peyğəmbər adıdır. Yol göstərən, çətinliklərdən çıxa bilən peyğəmbərin adı kimi yaddaşlarda yaşayır. Beləliklə, babasının qoyduğu ad sonradan qardaş itkisi ilə bağlı olaraq qoşalaşır və bir şair taleyinin, bir yazarın ünvanı olur.

Dostumun mənə danışdıqlarına görə o, çox yumorlu, həyatsevər bir insandır. Son vaxtlar "Ömrüm, məni bağışla", "Təmsillər" kimi kitabları

O zaman hər şey şirin,
Hər şirinin öz adı.
Anamın yaxmacının
Dadı damağımdadı.
Müəllimim öyrətdi
Oxumağa həvəsi.
Barmağımdan getməzdi
Mürəkkəbin ləkəsi
Qulağıma son zəngin
Arabir səsi gəlir.
Qarışıb göz yaşıma
Xatirələr dincəlir
Yazdığım şeirlərdə

Bu misraları oxuduqca yuxarıda qeyd etdiyim kimi öz həyatımın görüntüləri gözlərimdə canlandı. Öz anamı gördüm. Anamın mənə qayğısını hiss etdim. Eləcə məktəb yolu da gözlərimdən keçdi. Nə etmək olar, görünür, insanların təbiətləri, həyatları müxtəlif olsa da, oxşar tərəfləri də az deyil:

Məni rahat qoymayan
Şairlik həvəsidi.
Çeşmənin zümzüməsi,
Blaqların səsidi.
Dağlarda əsən külək,
Dərələrdə mehdi, meh.
Səhərin dan ulduzu
Çiçək üstə şehdi, şeh.
Qəlbimə yol salanlar
İstəyinə tez çatar.
Sevənlərin xətrinə
Fidanlarım boy atar.

Maraqlıdır ki, müəllif xatirələrini çözdükcə, həm də şeirə, sənətə, sözə gəldiyi yola, cığıra düşür. Öz uşaqlığım, yeniyetməliyim bu misraların arasından mənə əl eləyir. Orta məktəb həyatım, hələ heç əmək yaşına çatmamış işə düzəlməyim, taleyimin məni mətbəəyə gətirməsi, sözə bağlaması - bütün bunlar mənim özümün xati-

Böyüyürdüm doğrular,
Yalanların içində.
Sən demə, bu dünyanın
Astarı, üzü varmış.
Demə, qorxub susanın
Qəlbində sözü varmış.
Hər sözü ölçüb- biçən,
Heç zaman salmaz havar.
Arayıb axtarsanız,
Sizə gərək olan var
Yazdığım şeirlərdə.
Şairlik peşəsini
Sevincim,qəmim verdi.
Sözümü deyim deyə
Qələmi əmim verdi
Məni rahat qoymadı
Qayğı dolu gecələr.
Misralara düzüldü
Ürəyimdən keçənlər.
Sözümün dəyərinə,
Qüruruna and içdim.
Çəkinmədim heç nədən,



bu yel zamanın insanın varlığına təsir edən münasibətdir. Görünür, şair həm də özünün yaş dövrünüdə xəzan zamanına aid edir.

Elə qəzetin ötən sayında Rafiq Musanın "Axtarıram özümü" adlı poemasına da rast gəldim. müəllif qeyd edir ki, o bu əsəri 50-il öncə tələbə yoldaşları olmuş dostlarına ithaf edir. Hər bir adam ruh etibarı ilə həyatının xatirələrini yaşadır. Bu xatirələrdən aldığı təəssüratlar zaman-zaman hər kəsin yaddşında oyanır. Rafiq Musa da 50-il öncəki yaşını, dövrünü yada salır. Və bu zaman istər-istəməz özünü ifadə üçün xatirələrə üz tutur. Əlbəttə, söhbət təkcə xatirələrdən getmir. Bir insan ömründə ağrılı-acılı, hansı məqamdasa, şirin, hənsı məqamdasa əzab dadı verən duyğulanmaların yazıya gətirilməsindən söhbət gedir. Doğrusu, bəlkə də bu poema mənim diqqətimi cəlb etməzdi. Amma mən bu əsərdə həm də öz həyatımın ilkinliyini gördüm. Əslində, əsər elə budur ki, oxucunun düşüncəsində əks olunsun. Rafiqin duyğulanmalarındakı səmimiyyət birbaşa oxucunun varlığına təsir edir. Əsərlə oxucu arasında bir doğmalıq yaranır. Mən sanki öz tərcümeyi-halımı, varlığımı gördüyüm yazıdan danışıram. Müəllifin lap əvvəldən başlaması da maraqlıdır. İstər-istəməz bir körpənin dünyaya gəlişini, onun ilk səsinri xəyalında canlandırır, eşidirsən.Sözün də gücü elə ilə ədəbi mühitdə müzakirələrə yol açıb. Onu tanıyanlar yaradıcılı haqqında məlumatı olanlar sosial şəbəkədə də ardıcıl olaraq münasibət bildirirlər.

Beləliklə, o, özü demiş, həyatının yaxşı nəyi varsa, hamısını birər-birər axtarmaqdadır. Elə şair ömrü bir axtarış yoludur.

Müəllif öz hekayətini təsirli notlarla davam etdirir:

Ayağım sıyrılmışdı,
Uşaq çağlarım idi.
Anam məni oxşayıb,
Qurban olaram,- dedi
Dünya mənə nə şirin,
Yox idi dərdim,acım.
O vaxtları yox idi
Kimsəyə ehtiyacım.
O da yadımdadır ki,
Vaxt olub,səhər-axşam
O qayğısız illəri
Bir-bir xatırlamışam
Yazdığım şeirlərdə

Hər kəsin taleyində yaşarı anlar olur. Bu yaşarı anlar kədərli də ola bilər, sevincli də ola bilər. Amma yaddaşda həmişə həzin duyğularla yaşayır, önsan ömründən keçən anlar.

Şairlər narahat ömür yaşayırlar. Onları aram olmağa, sakit olmağa qoymayan daxili aləmlərindəki hissiyyatlar, duyğulardır. ƏN gözəl hissiyyatlar, duyğular məhz şəxsi əlinə qələm götürməyə vadar edəndir. Elə Rafiq də bunu etiraf edir:

rələrimdir. Şairin poetik misraları mənim də əlimdən tutub həmin uzaqlıqda qalmış zamanın dumanlı çağlarına aparır.

Pedaqoji İnstitutda oxuduğum illər yaddaşıma gəlir. Onu da deyim ki, R.Musanın bu xatirələri ilə mənim həyatımın bənzər tərəfləri az dyil. Mən də Pedaqoji İnstitutda oxumuşam. O dövrün tələbəlik həyatı çox mənalı idi. Müəllimlərimiz, tələbə yoldaşlarımız açıq-aydın bir amala güvənci idi. Biz oxumaq, öyrənmək istəyirdik. Müəllimlərimizin əsas amalı öyrətmək idi. Təəssüf ki, o cür gözəl ənənələr yaddan çıxıb, sistem dəyişilib, mənafe məsələsi indi ön plana çıxıb. Xüsusilə, test üsulu biliklərə yiyələnməni, bir növ, bayağılaşdırıb. Bu da R.Musanın tələbəlik illərindəki yaşantıları:

Tələbəlik illəri
Mənə yeni ad verdi.
Göylərdə uçum deyə
Mənə qol- qanad verdi.
Qəlbimi açammadım,
Sevdiyim küsüb getdi.
Ürəksizlər sevmədi,
Qəlbimi üzüb getdi.
Həyat çəkdi sınağa,
Əldən getdi dincliyim.
Qoşulub durnalara
Uçub getdi gəncliyim
Yazdığım şeirlərdə.
Dünyanı anlamaqda
Hərə bir cür seçimdə.
Dağ aşdım, dərə keçdim
Yazdığım şeirlərdə.

Tam da razıyam. Çünki o vaxtın gəncləri kifayət qədər cəsarətli idi. Tədbirlərdə, yığıncaqlarda çıxışlarımız, şeir deməyimiz, tamaşalarda iştirakımız... bütün bunlar gəncliyimizin mənası idi. Əlbəttə, o vaxt da sözə bayağı yanaşanlar az deyildi. Şair orasını doğru deyir ki, sözə ağız büzənlər bəzən bir gəncin istəklərini yarı yolda qoyurdu. Bir sözlə, yaşamağın mənası sözlə bağlı olanda daha dəyərli olur.

Müəllif yeri gəldikcə maraqlı obrazlardan da istifadə edir: *"Şairlik peşəsini Sevincimi, qəmimi, Sözümü demək üçün Özümə yol seçdim"*. Bu, şairin qənaətidir. Hər bir insan özünü həyatda tapmaq istəyir. Müəllifin duyğulanmalarına görə, onun xəyalları vaxtilə ağ əlçim buludlara bənzəyib. Təəssüf ki, o əlçim buludları həyatın küləkləri teç aparıb.

Əsər həyatla səsləşir. Əgər məndən soruşsaydılar ki, belə əsərlərin əhəmiyyəti, dəyəri insanlara təsiri varmı? Qətiyyətlə cavab verərdim ki, bəli. Belə əsərlər insanların yaddaşındakı xatirələri oyatmaqla adamlara yeni mənəvi təpər, güc verir, hər kəs öz gəncliyini yada salır, ruhu təzələnir. Yaradıcı insan üçün belə təsirlənmələr əvəzsiz təsirə malikdir.

***(Davamı var)***